**UOT 94**

# D.TRAMPIN PREZİDENTLİYİ DÖVRÜNDƏ ÇİNLƏ TİCARƏT SAVAŞININ ÇİN-İRAN MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ

**Ülkər ƏLİYEVA - ABDULLAYEVA***

***Açar sözlər:*** *Çin-İran əməkdaşlığı, "Yeni İpək yolu", ABŞ sanksiyaları, ticarət savaşları*

## Giriş

Son onilliklərdə Çin və İran arasında münasibətlər, onlara ABŞ-ın müdaxiləsi səbəbindən üçtərəfli xarakter daşıyır. Bu iki dövlət arasındakı əlaqələrdə hər birinin Amerika ilə münasibətləri özünü əks etdirir. ABŞ-ın xarici siyasətindən narazılığın Çin-İran əməkdaşlığının dərinləşməsi üçün əsas yaratmasına baxmayaraq, Pekin Vaşinqtonun təzyiqləri üzündən müəyyən dövrlərdə bu münasibətlərin inkişafını ləngitmişdir. Çünki Çin rəhbərliyi İranla əməkdaşlıqdan əsasən iqtisadi fayda əldə etmək niyyətindədir və ABŞ-la, özünün iqtisadi inkişafına mane olacaq qarşıdurma istəmir.

Çin və İranın qarşılıqlı siyasi fəaliyyəti ABŞ və müttəfiqlərinin regionda güclənməsinə qarşı çıxmaqdan ibarətdir. Bununla belə, Pekin Qərbin düşmənçilik kimi dəyərləndirəcəyi qətiyyətli addımlar atmaq niyyətində deyil. Çinin xarici siyasət strategiyası güclü rəqiblə birbaşa qarşıdurmadan yayınmaq məqsədi daşıyır və maksimal sayda əməkdaşlar cəlb etməklə ölkə iqtisadiyyatının yüksəldilməsinə üstünlük verir. ABŞ-ın hegemonluğuna əsaslanan birqütblü dünyanı tənqid edən Çin eyni zamanda Amerikanın müttəfiqlərilə iqtisadi əməkdaşlığı davam etdirir və Pekin bu iki fəaliyyət arasında ziddiyyət görmür (2, s.100).

## I. Çin-İran münasibətləri ABŞ-la ziddiyyətlər kontekstində

ABŞ Çin-İran əlaqələrinin minimallaşdırılmasına yönəlmiş siyasətini hələ ötən əsrdən reallaşdırmağa başlamışdır. XX əsrin 80-ci illərində Vaşinqton İraqla müharibə aparan İrana Çin silahlarının satışına mane olmağa çalışırdı. Əsrin 90-cı illərinin ortalarında isə İranla nüvə əməkdaşlığına görə ABŞ tərəfindən Çinə təzyiqlər bu sahədə İran-Çin əlaqələrinin kəsilməsi ilə nəticələnmişdi. Lakin münasibətlərdəki enmə və yüksəlişlərə baxmayaraq, Çin və İran uzun müddətdir ki, sıx əlaqələri davam etdirirlər (3). Ekspertlərin dəyərləndirmələrinə görə, İran və Çin arasında yaxınlaşmanı yeni güc mərkəzi kimi nəzərdən keçirmək düzgün deyil. Çünki Pekin Yaxın Şərq istiqamətində kifayət qədər ehtiyatlı fəaliyyət göstərərək geosiyasi, dini, iqtisadi ziddiyyətlərə və silahlı konfliktlərə cəlb olunmaqdan yayınır, region dövlətləri ilə yalnız iqtisadi əməkdaşlığa üstünlük verir. Buna misal olaraq, Çinin İran və Səudiyyə Ərəbistanı arasındakı gərgin münasibətlərdən kənarda qalmasını göstərmək olar. Çin Suriya, İraq və Yəmən konfliktlərindən də uzaq durmağa üstünlük verir. Məsələn, 2018-ci ildə Tehranın təşəbbüsü ilə təminatçı ölkələr olan Rusiya, Türkiyə və İran tərəfindən Astana danışıqlarının formatını Çinin də daxil edilməsi ilə genişləndirmək təklifi irəli sürülsə də, Pekin buna razılıq vermədi (2, s.98).

Çin rəhbərliyi İranın Şanxay Əməkdaşlıq Təşkilatına daxil edilməsi məsələsində də təmkinli mövqe tutur. İran bu təşkilatda 2005-ci ildən müşahidəçi statusuna malikdir, 2008-ci ildən isə üzvlük üçün müraciət etmişdir. Lakin İranın ŞƏT-ə üzvlüyü ABŞ və onun müttəfiqləri ilə münasibətlərdə gərginlik yaradacağına görə Rusiya və Çin belə bir riskə yol vermək istəmirlər. Hətta 2012-ci ildə onların təşəbbüsü ilə ŞƏT-in Nizamnaməsinə, BMT sanksiyaları tətbiq edilən ölkənin təşkilata üzvlüyünün qeyri-mümkünlüyü barədə yeni maddə daxil edilmişdir (2, s.99).

D.Tramp administrasiyası dövründə Çin-ABŞ ziddiyyətlərinin zirvəsi ticarət savaşının başlanması oldu. Ticarət savaşları, ümumi mənada, qarşılıqlı idxal-ixrac həyata keçirən ölkələrin idxal olunan məhsullara əlavə vergilər qoyması yolu ilə tarif nisbətinin artırılmasından irəli gələn qoruyu-

* *AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, tarix üzrə fəlsəfə doktoru*
*E-mail: aliyevaulker82@hotmail.com*

cu ticarət təcrübəsinin nəticəsidir. Tarixdə dəfələrlə ticarət müharibəsi adlana biləcək iqtisadi gərginliklər baş vermişdir. Qeyd edək ki, bunların əsas oyunçusu ABŞ olmuşdur (1).

ABŞ və Çin arasında növbəti ticarət qarşıdurması 2018-ci ilin ortalarında başladı. Belə ki, Birləşmiş Ştatların 45-ci prezidenti D.Tramp "ABŞ-ın milli maraqlarını qorumaq" məqsədilə Çin məhsulları ilə bağlı bir sıra iqtisadi təhlükələrin mövcudluğunu vurğuladı (1) və Çinə qarşı ticarət məhdudiyyətlərinin tətbiqi barədə memorandum imzaladı. 2018-ci ilin yazında Çin məhsulları idxalına və investisiyalara yüksək vergilər tətbiqi elan edildi. 2018-ci il ərzində vergi tətbiqi ilə bağlı ABŞ və ÇXR arasında gərginlik xeyli artaraq elə bir həddə çatdı ki, tərəflərin fəaliyyəti mətbuatda "ticarət müharibəsi" adı aldı. Həmin ilin iyun ayında Tramp Çini Amerikaya məxsus intellektual mülkiyyətin və texnologiyaların oğurlanması, eyni zamanda ədalətsiz ticarət təcrübəsində ittiham etdi. İrəli sürülmüş ittihamlar əsasında Amerika rəhbərliyi ÇXR-dən idxal olunan 50 milyard dollarlıq məhsula 25% vergi tətbiq etdi. ÇXR rəhbərliyi də gecikmədən cavab verdi və eyni dəyərdə Amerika idxal məhsullarına vergi tətbiq etdi. Nəticə olaraq, tərəflərin vergilərə görə zərəri hər biri üçün 34 milyard dollar dəyərləndirildi.

2018-ci ilin dekabr ayında Vaşinqton və Pekin 2019-cu ilin mart ayınadək nəzərdə tutulmuş 90 günlük ticarət barışığı barədə razılığa gəldilər. 2019-cu ilin mart ayında Amerika rəhbərliyi ÇXR-ə yeni vergilərin tətbiqi qərarının təxirə salındığını elan etdi və Çin rəhbərliyindən də bunun əvəzində Amerika kənd təsərrüfatı məhsullarına qoyulan vergilərin ləğvini tələb etdi (10; 2, s.95). Lakin müvəqqəti barışıq çox davam etmədi. Beləliklə, Birləşmiş Ştatlar tarifləri 10%-dən 25%-ə qaldıraraq ticarət müharibəsini yenidən başladı (8). Bu baxımdan Trampın twitter hesabından hədələri diqqəti cəlb edir. Prezident ilk tvitində "10 ay ərzində Çin ABŞ-a yüksək texnologiyalı məhsullar üçün 50 milyard dollara görə 25% və 200 milyardlıq digər məhsullara görə isə 10% vergi ödəmişdir. Cümə günü 10% - 25 %-ə, yəni, 325 milyard dollara...... yüksələcək" (Donald J. Trump (@realDonaldTrump) 5 мая 2019 г.) yazmışdı. İkinci tvit də birincinin davamı oldu. Burada Tramp həm də əvvəllər vergi tətbiq olunmamış məhsullara da 25%-li gömrük vergisi tətbiqinin perspektivi barədə xəbərdarlıq edirdi (6).

Trampın hədələrinə qarşı Çinin sakit mövqeyi onun məsələnin həllində daha çox maraqlı olduğunu göstərirdi. Baxmayaraq ki, bu müharibə ABŞ iqtisadiyyatına da ciddi mənfi təsir göstərmişdi.

### II. Ticarət savaşının Çin-İran münasibətlərində əks olunması

ABŞ və Çin arasında 2018-ci ildən başlanan ticarət savaşları Çinin İranla münasibətlərinə birbaşa təsir göstərdi. Belə ki, ticarət qarşıdurmasının tənzimlənməsi istiqamətində danışıqların gündəliyində Amerikanın Çindən İran neftinin idxalını dayandırmaq istəyi də vardı. Əgər Pekin Vaşinqtonun təklif etdiyi şərtlərlə ticarət müqaviləsi imzalayardısa, Çin-İran münasibətlərinə və İran neftinin ixracına zərbə vurulmuş olacaqdı.

Qarşıdurma o qədər böyük miqyas aldı ki, özündə təkcə iqtisadi deyil, həm də siyasi xarakterli məsələləri birləşdirdi. Trampın bu mübarizədə seçdiyi xəttə gəldikdə, onun başlıca məqsədi Çinin sürətli iqtisadi artımına mane olmaq, onu iqtisadi və siyasi cəhətdən sıxışdırmaq və bu qələbədən 2020-ci il seçkilərində istifadə etmək idi.

Lakin ABŞ və Çin arasında ticarət müharibəsi getdikcə daha çox gözlənilməz qərarlar və çıxılmaz vəziyyətlər müharibəsinə çevrilir. Belə ki, Vaşinqtonun təzyiq göstərdiyi ölkələrin gec-tez anti-Amerika mövqeyi tutacaqlarına dair ümumi təsəvvür mövcuddur. Çin iqtisadi maraqlarını çox zaman ön plana qoyduğuna və siyasi məsələlər onun üçün ikinci dərəcəli əhəmiyyət kəsb etdiyinə görə, ticarət savaşı gedişində mövcud təsəvvürləri dəyişdi. ABŞ-Çin ticarət savaşının qızğın dövründə mətbuatda Çinin İran neftinin alışını tam dayandırması barədə xəbərlər səslənməyə başladı. İlk olaraq "Wall Street Journal" qəzeti bu barədə məlumat yaydı.

Rəsmi olaraq Tehrana qarşı iqtisadi sanksiyalara əməl etməyən Çinin İran neftinin alışını dayandırması barədə xəbərlər dünya ictimaiyyətini çaşdırdı. Buna bənzər vəziyyətə hazır olan Tehranda da Çinin bu davranışı təəccüb doğurdu. Çünki Tehranda Çinin rəsmi olaraq neft alışından imtina edəcəyi təqdirdə, ən azından kiçik şəxsi Çin şirkətlərinə neft satmağı nəzərdə tutmuşdular (6). Lakin mətbuatda səslənən məlumata görə, Çin İran İslam Respublikası ilə neftlə bağlı bütün münasibətləri

kəsmişdi. Halbuki Çinin embarqo tətbiqi barədə rəsmi məlumat mövcud deyil. Si Tszinpin və ya hər hansı bir Çin rəsmisi tərəfindən bu barədə heç bir bəyanat verilməmişdi. "Wall Street Journal" qəzeti məlumat verdi ki, "Tehranlı iş adamlarının sözlərinə görə, Çin şirkətləri artıq İrandan neft almır. Bu, İranın ümid etdiyi kimi, böyük dövlət şirkətləri əvəzinə neft ala biləcək kiçik şəxsi kampaniyalara da aiddir". Qəzet həm də gəmilərin hərəkətini izləyən "FleetMon trekinq"in məlumatlarına əsaslanaraq qeyd edirdi ki, "Asiya limanlarına ixrac edilən məhsulların əksəriyyətinin ötürüldüyü İranın Xərq limanında may ayının ortalarından Çinə məxsus neftlə dolu tanker gözləyir. Öncə bu hadisə Çinin İrandan idxalı bərpa etməsi kimi dəyərləndirilsə də, tanker öncə İndoneziya istiqamətində üzməyə başladı, sonra geri qayıtdı. Hazırda İran sahillərində, Oman körfəzində üzməkdədir. İranın quruda neft anbarları dolu olduğundan və Çinə göndərilmək üçün hələ göstəriş gəlmədiyindən tanker neft saxlamaq üçün çən kimi istifadə edilir" (9; 4).

"Wall Street Journal" qəzeti həm də Tehranda yerləşən "Meraat İnternational" beynəlxalq ticarət evinin sahibi Həmid Hüseyninin sözlərini misal gətirirdi: "Sahibkar Çinin kiçik şəxsi şirkətlərinin təmsilçiləri ilə görüşmüş və ona bildirmişlər ki, Çin hökuməti onlara İrandan neft almağı qadağan etmişdir" (9).

Qəzet adının anonim qalmasını istəmiş digər iranlı iş adamının sözlərini də dərc etmişdi: "Çinin ABŞ-la kifayət qədər problemi vardır. Onlar bu ölkənin əlinə bəhanə vermək istəmirlər" (9; 6).

Birləşmiş Ərəb Əmirliklərində nəşr edilən "The National" qəzeti isə yazırdı ki, "Amerika sanksiyalarının təzyiqi və koronavirus üzündən tələbin azalmasına görə, Çin tərəfindən İran neftinin idxalı 2017-ci ildə 630 min barreldən 2020-ci ildə 100-200 min barrelədək enmişdir" (6).

Çin tərəfi Amerikada narahatlıq doğuran İranla "yol xəritəsi" barədə də heç bir rəy bildirmədi. "Yol xəritəsi" deyilən sənədin Çinin İrana geniş miqyaslı investisiyaları ilə bağlı razılaşma olduğu barədə xəbərlər yayılsa da, Çin tərəfi belə bir sənəd olduğunu inkar etdi. Belə ki, 2019-cu ildə Çinin İrana böyük miqyasda investisiya qoyacağı barədə xəbərlər yayıldığı zaman, kütləvi informasiya vasitələrində İran və Çinin "neft-qaz bombası" hazırladıqları barədə müzakirələr başladı. Ekspertlər hesab edirdilər ki, bu layihə Pekinin rəsmi siyasətinə ziddir, lakin Amerika təzyiqlərinin gücləndiyi şəraitdə Çin hakimiyyəti üçün cəlbedici olmağa başlayır.

İrana geniş miqyaslı Çin investisiyaları haqqında ilk olaraq 2019-cu ilin sentyabr ayının əvvəlində "Petrolium Economist" jurnalı İran İslam Respublikasının Neft Nazirliyində yüksək səviyyəli mənbəyə əsasən məlumat yaydı. İxtisaslaşmış jurnal qeyd edirdi ki, avqust ayının sonunda İranın xarici işlər naziri Məhəmməd Zərif öz çinli həmkarı Van İni ziyarət etmiş və 2016-cı ildə imzalanmış İran-Çin strateji əməkdaşlığı barədə saziş üçün yol xəritəsini təqdim etmişdir. "Petroleum Economist" məlumat verirdi ki, qlobal neft və qaz balansını dəyişə biləcək sənədin bir çox mühüm bəndləri barədə ictimaiyyətə məlumat verilməyəcəkdir. Yenilənəcək sazişin əsas sütununu Çinin İranın yanacaq-energetika kompleksinə yaxın 5 il ərzində qoyulacaq 280 milyard dollarlıq investisiyalar təşkil edəcək" (5). Yalnız 2019-cu ilin sentyabr ayında ÇXR Xarici İşlər Nazirinin mətbuat katibi Qen Şuan bəyanat verdi ki, "Çin və İran artıq beynəlxalq hüquq çərçivəsində qarşılıqlı səmərəli əməkdaşlıq həyata keçirirlər və yayılan bu məlumatdan xəbərsizdir" (6).

2020-ci ilin iyul ayında İran Xarici İşlər Nazirliyinin bəyanatında bildirildi ki, sənəd yalnız hər iki dövlət tərəfindən imzalanarsa, dərc olunacaq. Xarici İşlər Nazirinin mətbuat-katibi Seyyed Abbas Musəvinin sözlərinə görə, sənəd tamamilə başqa məzmundadır və yayılan şayiələrlə heç bir əlaqəsi yoxdur. İran prezidenti Həsən Ruhani də o zaman bildirdi ki, "Yol xəritəsi" – İran və Çinin əsas layihələr və infrastrukturun inkişaf etdirilməsində iştirak platformasıdır (5). Beləliklə, ekspertlərin gümanına əsasən, mətbuatdakı məlumatlar İran tərəfindən sızdırılmışdı və bəzi ekspertlər bunu piyar hesab edir. Buna baxmayaraq, ABŞ-da "neft-qaz bombası" ideyasını utopik hesab etmirlər (6).

**Nəticə**

Qeyd olunanları ümumiləşdirsək, ticarət savaşında qarşıya çıxan iqtisadi problemlərlə bağlı olaraq Çinin ABŞ-la münasibətləri tənzimləməyi prioritet məsələ kimi qarşıya qoyduğu və bu səbəbdən İranla əməkdaşlığı ikinci plana keçirdiyi nəticəsinə gəlmək olar. Hərçənd İrandan neft idxa-

lının tam dayandırılması Çin üçün iqtisadi nöqteyi-nəzərdən faydalı deyildir. Çünki, İran çoxsaylı regional böhranların yaratdığı problemlər (məsələn, Liviya, Əlcəzair, Venesuela və Anqolada daxili xaos və vətəndaş müharibələri səbəbilə neft hasilatının azalması) fonunda mühüm və etibarlı neft təchizatçısı olaraq qalır. Pekin İrandan neft alışını dayandırarsa, regional enerji bazarında mühüm ixracatçı dayağını itirmək riski ilə qarşılaşa bilər. Çinin Yaxın Şərqdəki neft təchizatçıları arasında İran ABŞ-ın nüfuz dairəsi xaricində olan yeganə ölkədir. Vaşinqtonla Pekin arasında kəskinləşən strateji rəqabət nəzərə alınarsa, bu vəziyyətdə Çinin xarici siyasətində İran xüsusi statusa malikdir.

Bundan başqa, ekspertlərin də rəyinə əsasən, İranda hadisələrin mümkün olacaq ən pis gedişatı - Amerika sanksiyalarının doğura biləcəyi siyasi qarışıqlıqlar da Çinin maraqlarına ziddir. Çünki bu vəziyyət Yaxın Şərqdəki qüvvələr nisbətini Çinin əleyhinə dəyişə bilər. Regionda sabitliyin pozulması bir çox Yaxın Şərq ölkəsinin də qatıldığı Çinin “Bir kəmər-bir yol” layihəsinə mənfi təsir göstərə bilər (3).

ABŞ-da yeni – Co Bayden administrasiyası Çinlə münasibətlərə yenidən baxmaq və Trampın qarşıdurma siyasətindən imtina edərək, açıq konfliktə yol verməmək niyyətini açıqlamışdır. Bayden “CBS” telekanalına müsahibəsində də Çinə münasibətdə “məhdud rəqabət” kursu seçəcəyini bildirmişdir (7, s. 6). Lakin yeni administrasiya özündən əvvəlki hakimiyyətin yaratdığı gərginliklər kontekstində çətin vəziyyətdə qalmaqdadır. Son dörd il ərzində xüsusilə mürəkkəbləşmiş Çin-ABŞ ikitərəfli münasibətlərinin yoluna qoyulması üçün yeni administrasiyanın xüsusi siyasi iradə və müdriklik, daha yaradıcı və fərqli yanaşma tətbiq etməsi lazım gələcək. Bu iki dövlətin münasibətlərinin tənzimlənməsinin Çin-İran əlaqələrində də əks olunacağı şübhəsizdir.

## ƏDƏBİYYAT


1. Karabel S. ABD-Çin Arasındaki Ticaret Savaşı Tartışmaları [Elektron resurs]: Stratejist, 09 Ocak 2020. Keçid: http://www.bilgesam.org/incele/8886/-abd-cin-arasindaki-ticaret-savasi-tartismalari/#.XX9bxy4zbDc (müraciət tarixi: 10.02.2020).
2. Абылгазиев И. И., Васецова Е. С. (2020). Отношения Китая и Ирана в условиях меняющегося миропорядка // Век глобализации, *№1,с.93–101.*
3. Готов ли Китай поддержать Иран в противостоянии с США? [Elektron resurs], Вести. Экономика, Москва, 11 сентября 2019. Keçid: https://www.vestifinance.ru/articles/119144 (müraciət tarixi 02.01.2020).
4. Гостева Е. Прогнулись под Америку: Китай сливает иранскую нефть [Elektron resurs]: Газета.ru, 28.05.2019. Keçid: https://www.gazeta.ru/business/2019/05/28/12380689.shtml (müraciət tarixi: 16.02.2020).
5. Иран подталкивает Китай к нефтегазовой «бомбе» против США [Elektron resurs]: EurAsia Daily, 14 июля 2020. Keçid: https://eadaily.com/ru/news/2020/07/14/iran-podtalkivaet-kitay-k-neftegazovoy-bombe-protiv-ssha (müraciət tarixi: 05.01.2021).
6. Кучер Е._Почему Китай встал на сторону США, а не Ирана? [Elektron resurs]: Царьград, 28 Мая 2019. Keçid: https://tsargrad.tv/articles/pochemu-kitaj-vstal-na-storonu-ssha-a-ne-irana_201307 (müraciət tarixi: 23.01.2020).
7. Строкань С. От беспредела к предельной конкуренции США и Китай прощаются с политикой Дональда Трампа [Elektron resurs]: Газета "Коммерсантъ", №22 , 09.02.2021.Keçid:https://www.kommersant.ru/doc/4682282 (müraciət tarixi: 15.02.2021).
8. Торговая война между США и Китаем: новое исследование ЮНКТАД [Elektron resurs]: Новости ООН, 5 ноября 2019. Keçid: https://news.un.org/ru/story/2019/11/1366471 (müraciət tarixi: 13.03.2021).
9. Benoit Faucon. Amid Tensions, Iran’s Crude Buyers Jump Ship [Elektron resurs]: The wall street journal, 27 may, 2019. Keçid: https://www.wsj.com/articles/amid-tensions-irans-crude-buyers-jump-ship-11558964215, (müraciət tarixi: 25.03.2020).

10. Trump Administration Expected to Designate Iran`s IRGC as a Terrorist Group [Elektron resurs], 2019. Keçid: https://www.breakingisraelnews.com/126112/trump-designateirgc-terrorist-group/ - (müraciət tarixi: 14.04.2019).

***РЕЗЮМЕ***

***Улькер Алиева-Абдуллаева***

***Влияние торговой войны с Китаем во время президентства Трампа на китайско-иранские отношения***

***Ключевые слова:*** *китайско-иранское сотрудничество, Новый Шелковый путь, санкции США, торговые войны*

В статье анализируется американо-китайский конфликт и его влияние на взаимоотношения Китая и Ирана. В исследовании также рассматриваются отношения между тремя странами, история санкций против Ирана, причины недовольства США по поводу сотрудничества между Ираном и Китаем, а также последствия усилий Америки по предотвращению сотрудничества этих государств. Кроме того, в статье обсуждаются такие вопросы как, нефтегазовые, энергетические и другие экономические отношения между Китаем и Ираном, и также их сотрудничество в военной области, усилия Китая по защите Ирана от санкций США, жесткие меры США против Китая в ходе торговой войны, угрозы Трампа и его жесткая позиция по налоговым вопросам, несмотря на протесты со стороны американских бизнесменов, уступки Китая перед лицом этих мер и даже задержка импорта нефти из Ирана и представлены интересные факты о вышеизложенном. В этой связи заслуживают внимания текст твитов Трампа и новости, опубликованные в международной прессе на основе достоверных источников. Сопоставлены процессы, происходящие в треугольнике США-Китай-Иран и также экспертные мнения о их причинах и последствиях, в конце сделаны выводы об экономических и политических интересах и перспективах отношений между этими странами.

***SUMMARY***

***Ulker Aliyeva-Abdullayeva***

***Impact of the trade war with China on the US-China relations during the presidency of Donald Trump***

***Keywords:*** *China-Iran cooperation, The New Silk Road, US sanctions, the trade wars*

The article analyzes the US-China conflict and its impact on the relationship between China and Iran. The relations between the three countries, the history of sanctions against Iran, the reasons for the US dissatisfaction with cooperation between Iran and China, and the implications of America's efforts to prevent cooperation between these states also are considered in this study. In addition, the article discusses issues such as oil and gas, energy and other economic relations between China and Iran, as well as their cooperation in the military field, China's efforts to protect Iran from US sanctions, US measures against China during the trade war, Trump's threats and tough stance on tax issues, despite protests from American businessmen, China's concessions in the face of these measures, and even the delay in oil imports from Iran, and provides interesting facts in relation to these issues. In this regard, the text of Trump's tweets and news published in the international press based on reliable sources deserve attention. Comparing the processes taking place in the US-China-Iran triangle and also expert opinions on their causes and consequences, finally, conclusions are drawn about the economic and political interests and prospects of relations between these countries.